UOT 94 "19/…"

# ABŞ-IN CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ MARAQLARI (1990-2001-Cİ İLLƏR)

**Ə.A.ZEYNALABDİNOV**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***zeynalabdinov86@mail.ru***

*Məqalə ABŞ-ın Cənubi Qafqazda hərbi-siyasi maraqları (1990-2001-ci illər) mövzusuna həsr edilmişdir. Burada ABŞ-ın Azərbaycan, Ermənistan və Gürcüstanla hərbi sahədə əməkdaşlığı araşdırılmışdır. Bundan başqa rəsmi Vaşinqtonun Cənubi Qafqaz siyasətində İran, Rusiya və Türkiyə faktorları məqalədə əks olunmuşdur.*

**Açar sözlər:** hərbi, siyasi, əməkdaşlıq, maraq, region

XX əsrin 90-cı illərinin əvvəllərində rəsmi Vaşinqton SSRİ-nin dağılmasından sonra Qafqazda fəal xarici siyasət yeritməklə, regionda özünün siyasi, iqtisadi və hərbi maraqlarını təmin etmək üçün geniş imkanlar əldə etmiş oldu. Qeyd edilən dövrdə ABŞ-ın Cənubi Qafqaz siyasəti daha çox müstəqillik əldə etmiş respublikalarda mövcud vəziyyətlə tanış olmağa, Azərbaycan, Gürcüstan və Ermənistanın iqtisadi, siyasi və hərbi potensialının öyrənilməsinə yönəlmişdi.

1991-1994-cü illər arasında ABŞ Qafqaz regionuna Rusiyanın təsir dairəsi kimi baxmaqla, öz maraqlarına təhdid olmadığı halda qarışmamaq mövqeyinə üstünlük verirdi. Bu baxımdan da, rəsmi Vaşinqton daha çox 1994-cü il "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Cənubi Qafqazda iqtisadi və hərbi-siyasi maraqlarını gücləndirmək kursunu götürdü.

ABŞ-ın Cənubi Qafqazda hərbi-siyasi maraqlarının araşdırılması rəsmi Vaşinqtonun region ölkələri ilə müxtəlif sferalarda münasibətlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir. XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq ABŞ administrasiyasının Azərbaycan, Gürcüstan və Ermənistanda hərbi-siyasi maraqlarının tədqiqi Qafqaz regionunda öz maraqları çərçivəsində ABŞ-İran, ABŞ-Rusiya rəqabətinin öyrənilməsi üçün də vacibdir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də rəsmi Vaşinqtonun müasir dövrdə də Qafqaz regionunda öz nüfuzunu möhkəmləndirmək üçün İran və Rusiya ilə rəqabətdə olmasıdır.

Qeyd etmək lazımdır ki, ABŞ administrasiyası Cənubi Qafqazda hərbi-

siyasi maraqlarını təmin etmək və bununla da öz mövqelərini daha da möhkəmləndirmək üçün atdığı mühüm addımları ilk növbədə NATO çərçivəsində həyata keçirməyə başladı.

Cənubi Qafqaz respublikaları, xüsusilə Azərbaycan və Gürcüstan hələ XX əsrin 90-cı illərinin əvvəllərindən NATO ilə əməkdaşlığa önəm versələr də, o dövrdə qeyd edilən respublikalarda mövcud olan hakimiyyətin yeritdiyi xarici siyasət kursu NATO ilə əlaqələrin inkişafına şərait yaratmadı.

Gürcüstanda Eduard Şevarnadze, Azərbaycanda isə Heydər Əliyev hökumətlərinin qurulması hər iki ölkənin ABŞ-la münasibətlərində yeni mərhələnin başlanması ilə nəticələndi. Belə ki, 1994-cü ildə Azərbaycan, Gürcüstan və Ermənistanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması rəsmi Vaşinqtonla hərbi sahədə əməkdaşlığın genişlənməsi üçün imkanlar açmış oldu.

Qeyd edək ki, "Sülh Naminə Tərfdaşlıq" proqramının əsas məqsədi Avroatlantik məkanda siyasi və hərbi əməkdaşlığın genişləndirilməsi, sabitliyin bərqərar olması, beynəlxalq sülh və təhlükəsizliyin qorunması, müasir təhlükələrin azaldılması, eləcə də Alyansın demokratik prinsiplərinə sadiqlik ruhunda münasibətlərin möhkəmləndirilməsidir (3, 212).

Region ölkələri "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulduqdan sonra ABŞ Cənubi Qafqazda hərbi cəhətdən möhkəmlənmək üçün səylərini gücləndirdi. Bəs, ABŞ niyə region ölkələri ilə məhz NATO çərçivəsində əməkdaşlığa üstünlük verirdi? Fikrimizcə bunu aşağıda qeyd etdiyimiz səbəblərlə izah etmək olar:

- ✓ region ölkələrinin (xüsusilə Azərbaycan və Gürcüstan) NATO ilə əməkdaşlığa üstünlük verməsi;
- ✓ Azərbaycan və Gürcüstanın NATO üzvlüyünə can atması;
- ✓ regiondakı mövcud münaqişələrin (Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya) həlli cəhətdən NATO çərçivəsində ABŞ-la hərbi sferada tərəfdaşlığın genişlənməsində region ölkələrinin maraqlı olması.

Qeyd edilən reallıqlardan biri də Cənubi Qafqaz dövlətlərinin regionda təhlükəsizliyin təmini baxımından NATO-ya önəm verməsi idi. Bunu göstərən faktlardan biri Azərbaycanın Müdafiə Nazirliyinin 2001-ci ilin martında Qafqazda NATO bazasının yaradılmasının bölgədə təhlükəsizlik və sabitliyin qurulması üçün şərt olduğunu bildirməsi oldu (8, 145).

Azərbaycan və Gürcüstandan fərqli olaraq, Ermənistan NATO ilə əməkdaşlığın genişləndirilməsində maraqlı deyildir. Bunun əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

- ✓ Ermənistanın bir çox sahələrdə olduğu kimi, hərbi sferada da Rusiyadan asılı olması;
- ✓ rəsmi Moskvanın region ölkələrinin NATO-ya daxil olmasında maraqlı olmaması.

Rəsmi Yerevanın bu sahədə maraqlı olmadığını göstərən faktlardan biri də prezident R. Koçaryanın 2007-ci ildə mətbuat konfransında Ermənistanın

NATO-ya daxil olmağa hazırlaşmadığını bildirməsi oldu (14).

Qeyd etmək lazımdır ki, Ermənistanın Rusiya yönümlü və rəsmi Moskvanın maraqları çərçivəsində siyasət yeritməsi rəsmi Yerevanı bir çox sahələrdə inkişafa deyil, tənəzzülə doğru aparır. Məhz elə bunun nəticəsidir ki, Ermənistan "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən irimiqyaslı layihələrdən kənarda qaldı. Halbuki, bu, Ermənistana zəif iqtisadiyyatını dirçəltmək üçün imkan ola bilərdi.

Rəsmi Yerevanın Rusiya yönümlü siyasəti Ermənistanın özündə də birmənalı qarşılanmır. Bunu göstərən faktlardan biri "Azad demokatlar" partiyasının sədri Xaçatur Kokobelyanın "Təəssüflər olsun ki, uzun illərdir Ermənistanın xarici siyasəti Rusiya xarici siyasətinin bir hissəsidir" fikrini bildirməsidir (15).

Ermənistanın NATO-ya daxil olmaq niyyətində olmamasına baxmayaraq, ABŞ-ın NATO vasitəsilə onunla əməkdaşlığı genişləndirməkdədir. Bəs rəsmi Vaşinqtonun məqsədləri nədən ibarətdir? Fikrimizcə əsas məqsədlər aşağıdakılardır:

- ✓ regionda özünün hərbi-siyasi maraqlarını gücləndirməklə, Rusiya və İranın mövqelərini zəiflətmək;
- ✓ region ölkələrinə hərbi yardımlar göstərməklə Cənubi Qafqaz dövlətlərində onları hər hansı bir təhdidlərdən (Rusiya və İran) qoruya biləcək ordu formalaşdırmaq;
- ✓ regionda NATO bazasının yaradılmasına nail olmaq.

Bütün bu reallıqlar ABŞ-ı region ölkələri ilə daha sıx əməkdaşlığa sövq edir. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti Heydər Əliyevin 1994, 1997 və 2000-ci illərdə ABŞ-a etdiyi səfərlər ikitərəfli münasibətlərin müxtəlif sferalarda inkişafına müsbət təsir göstərdi.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Vaşinqtona rəsmi səfəri zamanı ABŞ Prezidenti B.Klinton bildirdi ki, ABŞ Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması sahəsində qarşıya çıxa biləcək hər hansı bir çətinliyin aradan qaldırılmasına bundan sonra da xüsusi diqqət yetirəcəkdir (2,16-17). ABŞ Prezidenti tərəfindən verilmiş bu bəyanat Azərbaycanın rəsmi Vaşinqton üçün önəmli ölkələrdən biri olduğunu göstərən faktlardandır.

İki dövlət arasında hərbi əməkdaşlığın genişlənməsində 2000-ci il mart ayının 21-də ABŞ Silahlı Qüvvələri Avropa komandanlığı baş komandanının müavini admiral Çarlz Abbotun Azərbaycana səfəri xüsusi rol oynadı. Admiral Çarlz Abbot Azərbaycan müdafiə naziri ilə görüşdə səfərin məqsədinin iki dövlətin silahlı qüvvələri arasında əməkdaşlığın özülünün qoyulması olduğunu bildirdi (4, 168).

Qeyd edək ki, 1993-2002-ci illər arasında ABŞ "Azadlığa Yardım Aktı"nın 907-ci maddəsinə görə Azərbaycana hərbi yardım göstərmədi. Rəsmi Vaşinqton bu dövrdə Ermənistana da hərbi yardım etmədiyini bildirdi. ABŞ administrasiyası 2002-ci ildə hər iki dövlət arasında güc balansını qoruyacaq şəkildə Azərbaycan və Ermənistana hərbi yardımlar etməyə başladı (8,416).

Diqqət yetirmək lazımdır ki, burada söhbət yalnız hərbi yardımdan gedir. Belə ki, Ermənistan qeyd edilən dövr ərzində digər sahələrdə ABŞ-dan xeyli yardım almış oldu. Elə bunun nəticəsidir ki, XX əsrin 90-cı illərində Ermənistan İsraildən sonra ABŞ-dan ən çox iqtisadi yardım alan ikinci ölkə oldu (13).

Regionda ABŞ-ın hərbi sahədə ən sıx əməkdaşlıq etdiyi ölkə Gürcüstandır. Gürcüstanı hərbi sahədə ABŞ-la yaxınlaşdıran səbəblərdən biri də Rusiya faktorudur. Belə ki, rəsmi Moskva Gürcüstandakı mövcud hərbi bazalardan və ölkə daxilində baş verən iğtişaşlardan rəsmi Tbilisiyə qarşı bir təzyiq vasitəsi kimi istifadə edir.

Bunu göstərən faktlardan biri də 1994-cü il may ayının 29-da E.Şevardnadzenin mətbuat konfransında Rusiyanın Abxaziya məsələsində Gürcüstana kömək etməyəcəyi halda Rusiya ilə bağlanmış hərbi müqavilələri təsdiq edilməyəcəyini bildirməsi oldu (10).

Onu da qeyd etmək lazımdır ki, ABŞ Gürcüstandakı mövcud Rusiya bazalarının çıxarılmasına çalışırdı ki, bu da öz ifadəsini 1999-cu ildə qəbul olunmuş "İstanbul bəyannaməsi"ndə tapdı. Bəyannaməyə görə, rəsmi Moskva 2001-ci ilin iyuluna kimi Vaziani və Quadautadakı hərbi bazalarının çıxarılması öhdəliyini götürdü (11).

1997-ci ilin iyul ayında Gürcüstan prezidenti E.Şevardnadzenin ABŞ-a ikinci səfəri zamanı, 1994-cü il səfərindən fərqli olaraq hərbi sahədə danışıqlar aparıldı (10). Bu danışıqlar ikitərəfli hərbi əməkdaşlığın inkişafında mühüm rol oynamış oldu. Belə ki, 1997-1999-cu illərdə ABŞ "Xarici Hərbi Maliyyələşdirmə" (Foreign Military Financing) proqramı ilə əlaqədar 17,5 milyon dollar vəsait ayırdı (9).

2000-ci ildə isə ABŞ Gürcüstana gürcü-çeçen sərhədini qorumaq üçün 70 milyon dollar dəyərində hərbi yardım göstərdi (8,416). Qeyd etdiyimiz bu faktlar rəsmi Vaşinqtonun hərbi sahədə Tbilisiyə xüsusi önəm verdiyini və bu sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu göstərir.

Azərbaycan və Gürcüstandan fərqli olaraq Ermənistanda formalaşan hökumətlər ABŞ-la münasibətlərin inkişafında maraqlı olsalar da, daha çox Rusiya yönümlü siyasətə üstünlük verirlər. Buna baxmayaraq, xüsusilə vurğulamaq lazımdır ki, rəsmi Yerevanın iqtisadi, siyasi və hərbi baxımdan Moskva ilə əməkdaşlığa üstünlük verməsi ABŞ tərəfindən Ermənistana edilən yardımların qarşışını almadı. Bunun ən mühüm səbəbi erməni lobbisinin güclü fəaliyyəti ilə bağlıdır. Elə bunun nəticəsi idi ki, 1992-ci ildə Corc Buş administrasiyası tərəfindən "Azadlığa Yardım Aktı" (Freedom Support Act) çərçivəsində Azərbaycana yardım edilmədi.

"Azadlığa Yardım Aktı" Corc Buş administrasiyası tərəfindən yeni müstəqillik qazanmış ölkələrə yardım məqsədilə hazırlanmış və 1992-ci ilin 30 oktyabrında prezident tərəfindən imzalanmışdı.

1994-cü ildə ABŞ prezidenti B. Klintonun Polşaya səfəri zamanı irəli sürdüyü Varşava təşəbbüsünə əsasən, Mərkəzi-Şərqi Avropa və yeni müstəqillik əldə etmiş respublikalara "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində

əməkdaşlıq üçün maliyyə yardımı edildi. Azərbaycan isə məlum "907-ci düzəliş"ə görə bu yardımdan məhrum oldu (4,102).

Ermənistana isə baş nazir Marqaryanın açıqlamasına görə, 1992-2001-ci illər arasında ABŞ tərəfindən 1.400 mln dollar dəyərində texniki və humanitar yardım edilmişdir (6,155).

Xəzər hövzəsində möhkəmlənmək ABŞ-ın ən mühüm strateji maraqlarından biridir. Burada təbii olaraq enerji ehtiyatlırının zənginliyi də əsas faktorlardandır. Digər bir faktor isə Xəzər dənizində mövcud neft və qaz ehtiyatlarının dünya bazarlarına təhlükəsiz daşınmasını təmin etməkdir. Bunu göstərən faktlardan biri də 2003-cü ildə Pentaqonda meydana gələn konsepsiyadır.

Konsepsiyaya görə, Xəzəryanı ölkələrdə elə xüsusi təyinatlı bölmələr və polis qüvvələri şəbəkəsinin formalaşdırılması nəzərdə tutulur ki, onlar neft obyektlərinə, o cümlədən boru kəmərlərinə terrorçuların basqını təhlükəsi daxil olmaqla, fövqəladə hallara çevik reaksiya verə bilsinlər (1). Bu və ya bu kimi digər faktlar rəsmi Vaşinqtonun öz maraqları çərçivəsində Xəzər dənizi hövzəsində təhlükəsizliyin təmin olunmasında maraqlı olduğunu göstərir. Bu baxımdan qeyd etmək olar ki, Xəzər dənizi hövzəsində möhkəmlənməklə ABŞ aşağıdakı məqsədləri güdür:

- ✓ enerji ehtiyatları ilə zəngin Xəzərdə güclü mövqe əldə etmək;
- ✓ rusiya və İranın Xəzərdə hərbi cəhətdən möhkəmlənməsinin qarşısını almaq.

Qeyd etmək lazımdır ki, ABŞ-ın Cənubi Qafqazdakı hərbi-siyasi maraqları sırasına regionda İran və Rusiya təsirinin güclənməsinin qarşısını almaq daxildir. Bunun əsas səbəbi İran və Rusiyanın regionda öz mövqelərini möhkəmləndirməklə və ABŞ başda olmaqla Qərb dövlətlərinin regiona nüfuz etməsinin qarşısını almağa çalışmalarıdır. Onu da vurğulamaq lazımdır ki, rəsmi Vaşinqton İran və Rusiya ilə bağlı bu siyasəti Türkiyəyə qarşı yeritmək fikrində deyildir. Bunun əsas səbəbləri nədir? Fikrimizcə bunu aşağıda qeyd olunan səbəblərlə əlaqləndirmək mümkündür:

- ✓ Türkiyənin Yaxın Şərqdə ABŞ-ın ən yaxın müttəfiqi olması;
- ✓ Rəsmi Ankaranın ABŞ-ın Qafqaz siyasətində mühüm faktor olması;
- ✓ Türkiyə ərazisində ABŞ-ın mühüm hərbi bazasının yerləşməsi;
- ✓ Türkiyənin NATO-ya üzv ölkə olması.

Türkiyənin ABŞ-ın Cənubi Qafqaz siyasətində mühüm yer tutmasını göstərən faktlardan biri də SSRİ-nin dağılmasından sonrakı dövrdə ABŞ-ın xarici işlər naziri Ceyms Beykerin açıq şəkildə bölgədəki ölkələrə İran modelini deyil, Türkiyə modelini əsas götürmələrini tövsiyə etməsi oldu (7,124). Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, ABŞ Sovet İttifaqının dağılmasından sonra regiona İran təsirinin artmasından narahat olmağa başladı. Buna görə də rəsmi Vaşinqton İranın regiona hər hansı bir həmləsinin qarşısını almaq üçün Türkiyənin regionda yeni düzən qurmaq cəhdlərini dəstəklədi (12,110).

11 sentyabr hadisələrindən sonra rəsmi Vaşinqton milli təhlükəsizlik strategiyasında beynəlxalq terrorizmi əsas təhdid kimi qiymətləndirdi (5,305). Bu reallıqdan çıxış edərək ABŞ Cənubi Qafqaz siyasətində bir sıra düzəlişlər etdi. Region ölkələri ilə beynəlxalq terrorizmə qarşı mübarizə prioritet məsələyə çevrildi.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycan, Gürcüstan və Ermənistan müstəqillik əldə etdikdən sonra Cənubi Qafqaz regionu ABŞ-ın xarici siyasət strategiyasında mühüm yer tutmağa başladı. Bu baxımdan da rəsmi Vaşinqton bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də Cənubi Qafqazda müstəqillik əldə etmiş respublikalarla əməkdaşlığın genişlənməsi və bu zəmində regionda özünün hərbi-siyasi maraqlarının təmini və gücləndirilməsi istiqamətində ciddi addımlar atdı.

Beləliklə, yuxarıda apardığımız araşdırmalar ABŞ-ın Cənubi Qafqazdakı hərbi-siyasi maraqları ilə bağlı bir sıra nəticələrə gəlməyə əsas verir ki, bunları da aşağıdakı şəkildə qeyd etmək olar:

- ✓ regionda İran, xüsusilə də Rusiya təsirinin güclənməsinin qarşısını almaqla, öz mövqelərini möhkəmləndirmək;
- ✓ Azərbaycan, Gürcüstan və Ermənistanla hərbi əməkdaşlığı genişləndirmək;
- ✓ Xəzər hövzəsində möhkəmlənməklə, həm Cənubi Qafqaz, həm də Orta Asiya bölgələrinə təsir gücünü artırmaq;
- ✓ hərbi əməkdaşlığı genişləndirməklə region ölkələrində formalaşdırılacaq müasir tipli ordu ilə Cənubi Qafqaz ölkələrini Rusiya və İran təhdidlərindən qorunacaq vəziyyətə gətirmək;
- ✓ Cənubi Qafqaz ölkələrində mövqelərini möhkəmləndirməklə, bu dövlətlərin İran və Rusiya deyil, ABŞ yönümlü siyasət yeritməsinə nail olmaq;

Sonda xüsusi olaraq qeyd etmək lazımdır ki, rəsmi Vaşinqton öz maraqları çərçivəsində Cənubi Qafqaza yönəlik siyasətində üstünlüklər əldə etsə də, regionda tam şəkildə möhkəmlənə bilməmişdir. Təbii ki, bu prosesdə İran və Rusiya faktoru olduqca mühüm yer tutur. Rusiyanın regionda, xüsusilə Ermənistanda mövqeyinin güclü olması və rəsmi Yerevanın İranla sıx münasibətləri ABŞ administrasiyasına Cənubi Qafqazda öz nüfuzunu artırmaq və mövqelərini möhkəmləndirmək yolunda ən əsas əngəllərdəndir.

Bu baxımdan hesab edirik ki, rəsmi Vaşinqton Cənubi Qafqaz regionunda möhkəmlənmək üçün Azərbaycan və Gürcüstanla əlaqələri daha da genişləndirməli, işğalçı Ermənistanın davranışına beynəlxalq hüquq çərçivəsində təsir göstərməli, regionda mövcud konfliktlərin həllində əsaslı rol oynamalı və bu problemlərin aradan qaldırılmasına çalışmalıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan qəz., 2005, 13 aprel.
2. Birlikdə yeni əsrə doğru. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri. 27 iyul-7 avqust, 1997-ci il, 415 s.
3. Əliyeva A. NATO-da hərbi-siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı: Yeni Poliqrafist, 279 s.
4. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000).Bakı: Adiloğlu, 2001, 226 s.
5. Nəsirov E. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı: Elm və Təhsil, 2010, 391 s.
6. Cemilli E. ABD'nin Güney Kafkasya politikası. İstanbul: IQ Kültur Sanat Yayıncılıq, 2007, 192s.
7. Kasım K. ABD'nin Kafkasya politikası: enerji, güvenlik ve demokratikleşme denklemi. /T. Demirtepe Orta Asya vəKafkasyada güc politikası. Ankara: USAK, 2008, 322 s.
8. Vedat G. Kafkasya'da siyaset : çatışma ortamı ve taraf güçler**.** Ankara: Kadim Yayınları, 2012, 504 s.
9. Darchiashvili D. Georgia Courts NATO, Strives for Defense Overhaul. (http://www.eurasianet.org/departments/insight/articles/eav072600.shtm).
10. Darchiashvili D.The Russian Military Presence in Georgia:The Parties' Attitudes and Prospects.(http://poli.vub.ac.be/publi/crs/eng/020104.htm).
11. Khelashvili G, Macfarlane N.S. The Evolution of US Policy Towards the Southern Caucasus.(http://www.uidergisi.com/wpcontent/uploads/201 3/02/the-evolution-of-us-policy.pdf_).
12. Krikorian R, Masih J. K. Armenia at the Crossroads London: Routledge, 1999, 142 p.
13. Henze B. P. American Interest in Caucasus ( http://www.aheku.org/articles/english/-general_en/1130).
14. http://www.panarmenian.net/rus/news/22709/.
15. http://www.tert.am/ru/news/2013/07/01/qoqobelyan/.


## ВОЕННО-ПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ США НА ЮЖНОМ КАВКАЗЕ (1990-2001ГГ)


**А.А.ЗЕЙНАЛАБДИНОВ**


### РЕЗЮМЕ


Статья посвящена проблеме военно-политических интересов США на Южном Кавказе в 1990-2001 гг. Здесь рассмотрены вопросы, связанные с сотрудничеством США с Азербайджаном, Арменией и Грузией в военной сфере. Кроме того в статье изучен иранский, российский и турецкий фактор в Южно-Кавказской политике официального Вашингтона.



**Ключевые слова:** военный, политический, сотрудничество, интерес, регион

**THE U.S. MILITARY AND POLITICAL INTERESTS IN THE SOUTH CAUCASUS (1990-2001YEARS)**

**A.A.ZEYNALABDINOV**

**SUMMARY**

The article is devoted to the theme of “The U.S. military and political interests in the South Caucasus (1990-2001-years)”. The military cooperation of the United States with Azerbaijan, Armenia and Georgia is investigated. In addition, Iraniar, Russian and Turkish factors in Washington's South Caucasian policy are analyzed.

**Key words**: military, political, collaboration, interest, region